# Təxəyyüllə sənəti qovuşduran məkan

**Milli mədəni irsimizin təşviqi, ənənəyə müasir baxış, milli və müasir irsimizin zənginləşməsinə xidmət edən meyillərin əksi...**



Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda açılan "Təxəyyül" adlı rəsm sərgisi hər bir ziyarətçini bu auraya salır.

"Təxəyyül Art Group"un 60-dan çox rəssam üzvünün 100-dək sənət əsərinin yer aldığı sərgidə rənglərin yaratdığı ecazkar mühit hər bir ziyarətçidə xoş ovqat yaradır.

Xalçaçı-rəssam, sərginin layihə rəhbəri Natiq Nəcəfzadə salonda yer alan sənət əsərləri barədə məlumat verdi:

– Sərginin təşkil olunmasında məqsəd qrup üzvlərinin əsərlərinin daha geniş publikaya tanıdılması, milli mədəni irsimizin təşviqi, ənənəyə klassik və müasir baxışın, nəzəri və təcrübi bilik və vərdişlərin formalaşması, milli və müasir irsimizin zənginləşməsinə xidmət edən meyillərin əks olunmasıdır. Sərgidə rəngkarlıq, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənətin nümunələri olan bədii tikmə, qurama, dulusçuluq, keramika, keçə və xətt sənəti təqdim olunur. Sərgidə yer alan əsələrlə tanış olan hər kəs sənətin avanqard sirlərinə yaxından bələd ola biləcək. Ölkəmizin milli-mədəni irsini təbliğ və təmsil etmək üçün xarici ölkələrdə təşkil olunan sərgilərdə də iştirak etmək əsas məqsədlərimizdəndir. Onu da qeyd edim ki “Təxəyyül ART GROUP”un tərkibində xarici ölkə vətəndaşları olan rəssamlar da var.



Açılışdan öncə Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı Aydın Rəcəbov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və digərləri çıxış edərək sərgi haqqında fikirlərini bölüşüb, nümayiş edilən əsərlərin üslub və forma baxımından orjinallığını qeyd etdilər. Ekspozisiyada yer alan əsərlərin əsl sənət nümunəsi olduğunu söyləyən natiqlər, fırça ustalarına yaradıcılıq uğurları arzuladılar.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Sərgi içtirakçıları sertifikat və təşəkkürnamələrlə təltif edildilər.

***C.ALIŞLI***

Xalq qəzeti .- 2024.- 1 avqust (№ 161).- S.10.